UOT 82:801.6; 82-1/9

# POEZİYADA VƏTƏNPƏRVƏRLİK İDEYASININ ÜMUMİ SƏCİYYƏSİNƏ DAİR (Q.QASIMZADƏNİN POEZİYASI ƏSASINDA)

**R.T.CAVADOVA**
***Bakı Dövlət Universiteti***
***cavadovarena@mail.ru***

*Məqalədə vətənpərvərlik ideyasının ümumi səciyyəvi xüsusiyyətləri araşdırılır. Bunu müəyyənləşdirmək üçün Azərbaycan ədəbiyyatının müxtəlif dövrlərinə aid materiallardan istifadə olunur və vətənpərvərlik ideyasına həmin gerçəkliklər kontekstində baxılır. Orta əsrlərdən müasir dövrə qədər bu ideya genişlənən və zənginləşən xətlə inkişaf etmişdir. Vətənpərvərlik ideyasının müasir poeziyada ifadəsi Qasım Qasımzadənin yaradıcılığı əsasında araşdırılmış və səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilmişdir.*

**Açar sözlər:** poeziya, vətənpərvərlik, ideya, ədəbiyyat, milli

Vətənpərvərlik ideyası mahiyyət etibarilə xalqın milli özünüdərkini təşkil edən təməl ideyadır. Bunun üzərində insana və cəmiyyətə verilən mənanın milli mənsubiyyəti, ölçüləri, kriteriyaları və miqyası müəyyənləşir. Vətənpərvərlik ideyası poeziyada öz ifadəsini müxtəlif şəkildə tapır.

Müasir dövrdə vətənpərvərlik mövzusu olduqca aktualdır. İlk öncə ona görə ki, o hər bir vətəndaşa aiddir, ölkədə və dünyada baş verən siyasi situasiya ilə də sıx əlaqəlidir. İnsanın öz ölkəsinə, ətrafındakı insanlara, öz doğma xalqına, dövlətinə, mədəniyyətinə və təbiətinə münasibəti vətənpərvərlik hissindən asılıdır. Eləcə də, insanın hər hansı ölkəyə mənsubluğu və sədaqətinin səviyyəsi onun elmə, sənətə, təhlükəsizliyə və insanın sosial həyatının bir çox sahələrinə verdiyi töhfələrdən asılıdır. Vətənpərvərlik hissinin ən yüksək səviyyəsinə insanların vətənin müdafiəsi uğrunda müharibəyə getmələri ola bilər. Burada xalqa, ölkəyə və dövlətə sadiqlik hissinin ümumxalq xarakter alması xüsusi əhəmiyyət daşıyır. Müharibə dövründə ordunun ruhi-psixoloji üstünlüyünü təmin edən əsas mənəvi ehtiyat vətənpərvərlik hissidir. Bu hiss insanın xalqına, ölkəsinə və dövlətinə olan sevgisi və sədaqəti üzərində formalaşır.

Qeyd etdik ki, vətənpərvərlik xalqın milli özünüdərkinin təməlini təşkil edən hiss, duyğu, düşüncə və fikirdir. Bu duyğu və düşüncə vətənə, onun

tarixinə, mədəniyyətinə, ənənə və məişətinə sədaqət, onunla qürur duymaq və ona olan sevgi hisslərində ifadə olunur.

Vətənpərvərliyin mənası və funksiyası dövlətin və millətin qorunmasının vahid tam kimi (mədəni, ərazi, siyasi, iqtisadi) bütövlüyüdür. Bu xalqın vəhdətini dəstəkləyən vasitələri və potensialı hərəkətə gətirən mənəvi gücdür. Bu – dildir, milli mədəniyyətdir, tarixi ənənə və varislik hissidir, dinin milli əlamətləridir, ərazi bütövlüyü və toxunulmazlığıdır. Ona görə də, vətənpərvərliyin sönməsi sosiumun böhranının əlamətidir, vətənpərvərliyin süni şəkildə dağıdılması isə xalqı məhv etmək yoludur.

S.İ.Ojeqovun lüğətində "patriotizm" anlayışına aşağıdakı kimi izah verilir:

"Patriotiz" öz vətəninə, öz xalqına sədaqət və sevgidir.

Patriot-patriotizmi yaşayan insandır".

Digər tarixi, sosioloji və ensiklopedik lüğətlərdə də başqa bənzər izahlar görmək mümkündür:

"Patriotizm – vətənə məhəbbətdir, min illərlə mövcud olan vətən xüsusiyyətlərinin əsrlərlə möhkəmlənmiş dərin hisslərindən biridir (5, 61).

Patriotizm – (patris-yunan sözü olub vətən, yurd deməkdir), vətənə məhəbbətdir, ona sədaqətdir, onun maraqlarına xidmət etməyə cəhd göstərmək, öz xalqı, mədəniyyəti, məişəti və əxlaqı ilə qırılmaz rabitəni duymaqdır.

Vətənpərvərlik ideyasının bütün zamanlarda xüsusi mövqeyi olmuşdur. Bu ideya təkcə cəmiyyətin mənəvi həyatını əhatə etməklə məhdudlaşmır, eyni zamanda onun ideologiya, siyasət, mədəniyyət, iqtisadiyyat, ekologiya və s. kimi ən vacib fəaliyyət sahələrində əhəmiyyətli yer tutur.

Vətənpərvərlik anlayışını N.M. Karamzin dəqiq müəyyənləşdirib: "Vətənpərvərlik vətənin rifahı və şöhrətinə olan sevgi və bütün səviyyələrdə onun yaranmasını istəməkdir". V.Sokolov da bu anlayışı bənzər şəkildə izah edir: Vətənə münasibətdə öz vəzifələrini aydın dərk etmək və onları doğru şəkildə yerinə yetirmək xeyirxah vətənpərvər yaradır".

Buradan belə anlaşılır ki, vətənə məhəbbətin mahiyyəti cəmiyyət və dövlət qarşısında duran başlıca vəzifələrin dərk olunmasından və onların həlli üçün yorulmadan mübarizə aparmaqdan ibarətdir.

Rus mütəxəssisləri vətənpərvərliyi milli özünüdərkdə qurbanla əlaqələndirirlər. Belə ki, vətənpərvər insan vətən üçün özündən və ailəsindən keçməlidir. Vətən uğrunda həyatından keçmək çağırışı Böyük Vətən müharibəsi dövrünün poeziyasında öz dərin izlərini saxlamışdır. Həmin dövrün rus poeziyasında N.M.Karamzin, S.N, Qlinka, A.İ.Turgenev və b. bu ideyanı əlvan bədii boyalarla əks etdirmişlər.

Azərbaycan şeiri bütün dövrlərdə oz məzmununda vətənpərvərlik ideyasını bu və ya başqa şəkildə ehtiva edib. Xalq yaradıcılığında yurdun müqəddəsliyi düşüncəsi vətənpərvərlik ideyasının əsasını təşkil edir. Yurdun qorunması da müqəddəsliyin qorunması mənasını bildirir. Azərbaycanlıların da aid olduğu oğuz xalq düşüncə tipində yurd (vətən) və el (dövlət) anlayışları birbirilə əlaqədə və vəhdətdədir. Yurd və el üçün qurban verilir və ya qurban

gedilir. İnsanlar vətən üçün hər şeyindən – malından və canından keçirlər. Oğuz eposunda bunun çeşidli nümunələri vardır. Bunlar sadəcə nümunə deyil, xalqın vətənpərvərlik və qəhrəmanlıq ideallarıdır. Yəni vətənpərvərliyin və qəhrəmanlığın ideal səviyyələri ən nikbin ifadəsini xalq yaradıcılığında tapır. Xalq yaradıcılığında vətən "ata yurdu"dur. Ata özünün qoruyuculuq vəzifəsi ilə bir sıra obrazlarda özünü göstərir. Bunun ən qədim və ən çox işlənən forması dağ obrazıdır. "Dədə Qorqud Kitabı"ndakı "qarşı yatan Qara dağ" qoruyucu ata obrazıdır. Ona sakral güc və yenilməzlik vermək üçün alqış edilir: "Qarşı yatan Qara dağın yıxılmasın!". Qara dağ yıxılmadıqca yurda təhlükə yoxdur. Orta çağ Oğuz türkü üçün ən böyük fəlakət və dəhşət "Qara dağın" yıxılmasıdır. "Qara dağ" yıxıldıqdan sonra oğuz xalqının faciəsi başlanır və dəhşətə qədər inkişaf edir.

Orta əsrlər Azərbaycan təsəvvüf ədəbiyyatında "vətən" sufilərin səcdəgahı mənasını bildirir. Sufi anlayışına görə səcdə edilən yer vətəndir. Bu düşüncə öz aydın ifadəsini Füzuli poeziyasında tapır:

Edəmən tərki Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənim.

Burada işlənən "vətən" sözünün birincisini yaradılışın başlanğıcı, ikincini bu dünya, üçüncüsünü isə "o dünya" və ya axirət mənasında izah etmək mümkündür. Çünki Füzuli sözün imkanlarından maksimum istifadə edən şairdir. Amma bütün hallarda mərkəzi məna müqəddəs məkandır, səcdəgahdır. Yarın küçəsinin başı aşiq üçün səcdəgahdır. Aşiq öz butasının ayağını qoyduğu yerə başını qoyur. Bunun mənası ilahi eşqdir. Sufinin Allaha olan sevgisi oz ifadəsini yara olan sevgidə göstərir. Əslində gerçək sevgi ilahi sevgini açır, onu reallıq kontekstində izah və şərh edərək gizlədir. Təsəvvüfün ezoterizmi (gizli biliklər) özünü burada bir daha təsdiq etmiş olur.

Müasir Azərbaycan düşüncəsində "Qara dağ" Qərbi Azərbaycan və Qarabağın dağları ilə ifadə olunur. Bu dağlar yadlar, yağılar tərəfindən işğal edildikdən sonra böyük bir köç (qaçqınlıq, məcburi köçkünlük, didərginlik), deportasiya və soyqırım başlanır, dünya ictimaiyyətinin sükutu ilə davam edir, beynəlxalq təşkilatlar, böyük dövlətlər səviyyəsində humanizmin və ədalətin süqutu ilə tamamlanır. Sakral mahiyyət daşıyan "Qara dağ" yağı tapdağı altında qalır. Çünki düşmənin qarşısında duran dağlar orada yerləşir. Göyçə, Zəngəzur, Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan-bunlar azərbaycanlıların könül dünyasının nin"Qara dağ"ıdır. "Düşmən qəvi" olduqca "tale zəbun" olur, çünki "dost da bipərva"dır. O da öz problemləri içərisində çabalamaqdadır. Beləcə, ata yurdu, ana vətən işğal altında əzab çəkməkdədir. Bu o deməkdir ki, ata da, ana da əsirlikdədir. Demək, vətən işğal olunanda atasız və anasız qalır. Bu zaman vətən "zavallı" və "yazıq" olur.

Vətəndən ayrı düşən insan ayrılıq, nisgil və həsrət duyğularını öz mənəvi dünyasında yenidən dəyərləndirir, yaradıcılığında mənalandırır. İnsan vətənin bir tərəfindən o biri tərəfinə köçməyə məcbur olanda da qürbət duyğularını yaşayır. Çünki bu köç könüllü bir yerdəyişmə deyil. Buradakı məcburiyyət

köçün üzərinə qəm pərdəsi çəkir, kədər çalarları gətirir. Bu emosiyalar xalq yaradıcılığında da, müasir poeziyada da rəngarəng ifadəsini tapır. Amma bütün hallarda burada ifadə olunan duyğuların kökü, mənşəyi, fikir və düşüncənin əsası birdir. Bu vətənpərvərlik ideyasıdır.

Bu ideya müqəddəs yer mənasından, səcdəgahdan müqəddəs yurd mənasına doğru genişlənir. XX əsrin əvvəlində Abbas Səhhətin "Vətən" şeirində Vətən haqqında manifest mövqeyinə yüksəlir. Bundan sonra bu səcdəgah həm "əcdadımızın mədfəni" kimi keçmişimizi, həm də "övladımızın məskəni" kimi gələcəyimizi özündə ehtiva edən milli könül dünyasının "sevgili məhbubu"na çevrilir. Təsəvvüf ədəbiyyatındakı vətən adlanan müqəddəs məkan müasir dövrün realist düşüncəsində mənəvi məzmununu yerin insanla əlaqələrinin izahı ilə zənginləşdirir. Bu izahlar vətən anlayışını daha anlaşıqlı bir şəkildə qavranılmasına və dərk olunmasına dəstək verir, onu şüurda, düşüncədə və duyğuda daha da möhkəmləndirir.

Vətən ideyası realist şeirdən keçir, gerçək məkanla əlaqələnir, real əsaslarla izah olunur və insanın iç dünyası ilə ətraf aləmin mənəvi təmaslarını şeirin məzmununa daxil edir. Bunun ardınca da vətən ideyası romantik düşüncədə milli ruhi yüksəlişi təmin edən vasitəyə çevrilir. Onun rəmzləri (məsələn, üçrəngli bayraq) motivlənir, şeirdə obraz kimi semantik keyfiyyət qazanır. Bu xüsusiyyət özünü daha çox Əhməd Cavadın poeziyasında daha aydın və daha parlaq bir şəkildə göstərir.

Sovet dövrünün poeziyasında vətən ideyası fiziki mənada geniş coğrafiyanı-Böyük Vətəni (keçmiş Sovet İttifaqını) əhatə edir (1, 56). Amma bu konkret ideya olduqca mücərrəddir və onun içindəki real və dəqiq vətən ideyasının əsl nüvəsi milli miqyasla məhdudlanan məkanın motivlənməsindən ibarətdir. XX əsrin əvvələrindən başlayaraq vətən ideyasının əsasını azərbaycançılıq düşüncəsi təşkil etməyə başlayır. Bu ideyanın əsasında konkret vətən-Azərbaycan dayanır. Sovet dövründə də Azərbaycan ideyası coğrafi bir çərçivədə olsa da, poeziyada əks olunur. Burada təbiətin gözəlliyi vətənin gözəlliyini göstərən əsas vasitə kimi istifadə olunur. O dövrün poeziyasındakı vətən ideyası milli zəmindən daha çox beynəlmiləl kontekstdə ifadə olunur, xalqlar dostluğu ideyası ilə birləşir (3, 43). Bu ideya bir qədər vətən ideyasını da ümumiləşdirir və onu insan və məkan kontekstinə gətirir və mümkün olduğu qədər sevgi motivi ilə mənalandırır.

Q. Qasımzadənin şeirləri bir çox hallarda daxili, gərgin monoloq, səmimi təhkiyə xüsusiyyətlərini özündə aydın şəkildə göstərir. Şair onu düşündürən suallara özü cavab axtarır və tapır. Bu zaman o tənha olur, darıxır, narahatlıq keçirir və öz anlaşılmazlığını hiss edir. Bu şair üçün xarakterik ruhi-psixoloji vəziyyətdir. Belə gərgin mənəvi-psixoloji durumda, yəni affektiv vəziyyətdə onun yeganə sevinci Vətəndir. Poeziyada müxtəlif yerlərdə bu təskinlikdir, təsəllidir, arzudur, ümiddir. Şairin xəyalındakı Vətən onun ilham qaynağıdır. Bu Vətən anlayışı həm gerçək, həm də xəyali ünsürlərdən ibarətdir. Gerçək vətən Azərbaycandır, onun təbiətidir, mədəniyyətidir və mənəviyyatıdır. Bu

şair üçün böyük vətəndir, real vətəndir, doğma vətəndir. Onun insanları, kəndi və şəhəri, eli-obası, yaylağı və qışlağı, dağı və aranı şairin Vətən məfhumunu təşkil edən real anlayışlardır. Şair bu dəyərləri bütün səmimiyyəti ilə tərənnüm edir.

Q.Qasımzadənin bir çox misraları vətən sevgisi ilə doludur. O öz xalqını sonsuz bir məhəbbətlə sevir və doğma təbiətin gözəlliyini çox həssas və incə bir şəkildə hiss edir. "Azərbaycan" şeirində şair həqiqi vətənpərvərliyi keçici hisslərdən ayırır və vətən sevgisini ən yüksək dəyərlər səviyyəsində tərənnüm edir. Şair bu şeirində vətən sevgisini insan sevgisi ilə birləşdirir və bir üzvi vəhdət halında təqdim edir:

Babalardan qalma sözdür,-
əziz mehriban
Ana deyə çağırırıq
Azərbaycanı.
Vətən quru dağ-daş deyil...
Onu hər zaman
Seyr etdikcə biz görürük
Canlı insanı (6, 32).

Şair bu "vətən-insan"ı belə izah edir: "Şirvan yolu alnındakı qırışlardır", "Nifrətidir, qəzəbidir Bakı küləyi", "Düşməninə yumruğudur Laçın, Qubadlı", "Sol döşündə orden kimi yanır Naxçıvan" və s. Burada həm təbiət, həm mədəniyyət, həm də bunların hər iksinə aid olan xarakterik xüsusiyyət vətən obrazının izahı üçün istifadə olunmuşdur.

Şair bütün real təbiət ünsürlərinə vətənin zərrəsi kimi baxır:

Bu torpağa ziynət vermiş, sığal çəkmiş təbiət,
Onu mənə ana edən deyil təkcə bu hikmət...
Kitablara sığışmayan tarixi var, adı var,
Bunlar uzaq keçmişlərdən qalıb mənə yadigar (6, 9).

Eyni zamanda bu zərrələri (təbiəti, torpağı və s.), yəni təbiəti mədəniyyətlə əlaqələndirir, keçmişə, tarixə və mədəniyyətə aid dəyərlərlə zəngin bir vətən fenomeni yaradır. Bu fenomen şairin poeziyasında bütün mümkün imkanlar səfərbər edilərək təbiət gözəlliyi, mənəvi dəyərlər və bədii vasitələrlə fasiləsiz olaraq zənginləşdirilir.

Şair kosmosa göndərilən raketə də "Vətənin bir parçası" (6, 5) kimi baxır. Çünki o kosmosda, sonsuz səmada, kainatda belə vətəni simvolizə edir. Şair bu hadisədən vətənin uğuru kimi qürur duyur.

Şairin yaradıcılığında təbiətlə insanın könül dünyasının harmoniyası, vəhdəti açılır. Vətən obrazı, sevgi hissi, şərəf, həqiqət, doğruluq, xeyirxahlıq anlayışı öz aydın ifadəsini Q.Qasımzadənin lirikasında tapır. Onun poeziyası insan şüurunu antihumanizmin, mənəviyyatsızlığın təsirindən qoruyan yüksək mədəniyyətin orqanik vəhdətidir.Bunun əsasında milli özünəməxsusluğun, azərbaycanlının mənəvi dünyasının zənginliyinin təsdiqi durur.

Q.Qasımzadənin poeziyada əxlaqi-estetik, fəlsəfi axtarışları azərbaycanlı düşüncə tipi ilə səciyyələnir. Şairin lirikası milli əxlaq və mənəvi dəyərləri də ehtiva edir. Şairin yaradıcılığına xas olan yüksək əxlaq və mənəviyyat səmimi hisslər, duyğular səviyyəsindədir. Bu səmimiyyət imkan verir ki, şairin ideyaları oxucunun könül dünyasına gedən yolu yaxınlaşdırsın.

Şairin oxucu auditoriyası əsasən gənclərdir. Gənc oxucuların şairin poeziyası ilə tanışlığı həm oxucuların mənəvi-emosional dünyasının zənginləşməsində, dünyagörüşünün və estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynaya bilər, həm də onların vətənpərvər ruhda böyüməsi üçün mənəvi resurslarla təması təmin etmiş olar.

### ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III c. Bakı: Elm, 1960, 430 s.
2. Azərbaycan ədəbiyyatında xalqlar dostluğu. Bakı: Elm, 1956, 155 s.
3. Ədəbiyyatda millilik və beynəlmiləllik. Bakı: Maarif, 1982, 220 c.
4. Ədəbiyyatımız və mənəviyyatımız. Bakı: Maarif, 1988, 190 s.
5. Аберкомби Н. Социологический словарь. М.: Экономика, 2004, 620 s.
6. Qasımzadə Q. Bənövşə yarpağı. Bakı: Elm, 1964, 115 s.


## ОБ ОБЩЕЙ ХАРАКТЕРИСТИКЕ ИДЕИ ПАТРИОТИЗМА В ПОЭЗИИ (НА ОСНОВЕ ПОЭЗИИ Г.ГАСЫМЗАДЕ)


**Т.Р.ДЖАВАДОВА**


### РЕЗЮМЕ


В данной статье изучаются характерные признаки идеи патриотизма. Для определения данных признаков используются источники азербайджанской литературы различного периода, и идеи патриотизма рассматриваются здесь в контексте данной действительности. Со времен средних веков по сегодняшний день данная идея развивается и распространяется. В современной поэзии идея патриотизма изучалась и нашла свое отношение в творчестве Гасыма Гасымзаде.



**Ключевые слова:** поэзия, патриотизм, идея, литература, национальный


## ON GENERAL CHARACTERISTICS OF THE IDEA OF PATRIOTISM IN POETRY (ON THE BASIS OF G.GASYMZADEH'S POETRY)


**T.R.JAVADOVA**


### SUMMARY


General typical features of patriotism ideas are investigated in the article. The author refers to sources of different periods of the Azerbaijani literature and considers patriotism in the context of the same realities. This idea has developed as a modern circumference by line expanding and enriched since the Middle Ages. Expression of patriotic ideas is investigated in the modern poetry on the basis of creative works of Gasim Gasizadeh and their typical features are defined.



**Key words:** poetry, patriotism, idea, literature, nation